DOI:10.30546/gdu.2023.43-46

**UOT:63.**

# QİSMƏT TRİTİKALE SORTUNUN MƏHSULDARLIĞINA TƏSİR EDƏN BƏZİ AMİLLƏR

***prof. Qurbanov Firuddin Hacı oğlu, b.e.i. Məmmədova Solmaz İsfəndiyar qızı, b.e.i. Əhmədov Altay Aftandil oğlu***

***Azərbaycan Dövlət Aqrar Uuniversiteti***

**Xülasə:** *Tritikale yeni dənli taxıl bitkisidir, böyük məhsuldarlığı ilə fərqlənir, tərkibində yüksək miqdarda zülal vardır.*

*Özündə buğdaya və çovdara xas olan müsbət irsi əlamətləri birləşdirir. Dəndə 15-18 % zülal olur. Buğdaya nisbətən zülal 1.0-1.5%, çovdara nisbətən isə 3-4 % artıq olur, lakin keyfiyyət aşağıdır. Dənin çörək bişirmədə, qənnadı sənayesində, pivə bişirmədə, heyvandarlıqda istifadə olunur. Tritikalenin kütləsindən heyvandarlıqda yem və döşənək kimi istifadə olunur. İrsi xüsusiyyətinə görə tritikale nə buğda nə də çovdardır.*

*Tritikalenin məhsuldarlığına bəzi amillər təsir edir. Bunlara mühit amilləri xəstəlik, zərərverici, aqrotexniki tədbirlər, kimyəvi mübarizə və s. Bu deyilənlərə əməl olunarsa tritikale Qismət – 1 sortundan yüksək məhsul əldə etmək olar.*

**Açar sözlər:** Buğda, Çovdar, Sort, Əkin materialları, Xəstəlik, Məhsuldarlıq, Amil, Qismət-1

**Ключевые слово:** Пшеница, Рожь, Сорт, Посдычный материал, Пораженность, Урожайность, "Qismət-1"

**Key words:**Wheat, Rye, Variety, Planting material, Disease, Productivity, "Qismet-1"

Tritikale yeni dənli taxıl bitkisidir,böyük məhsuldarlıq potensialı ilə fərqlənir,tərkibində yüksək miqdarda zülal və (lizin, triptofan) olması onun ərzaq və yemlik dəyərini müəyyən edir. Buğda və çovdar hibrididir.Özündə buğdaya və çovdara xas olan müsbət,irsi əlamətləri birləşdirmişdir. Buğdadan sünbülün çiçəkliyini dənin keyfiyyətini və iriliyini; çovdardan isə şaxtaya davamlılığını, güclü kollanmağı, sünbülün uzunluğunu sürətlə inkişaf etməyi, göbələk xəstəliklərinə davamlı olmaq kimi müsbət əlamətləri özünə keçmişdir. Dənindən çörəkbişirmə, qənnadı sənayesi, pivəbişirmə və heyvandarlıqda qüvvəli yem kimi istifadə edilir. Unundan 20-30% buğda ununa qatdıqda yaxşı çörək alınır. Digər dənli taxıl bitkilərinə nisbətən hər kq dəndə 20-30 qr lizin vardır.

Tritikalinin kütləsindən heyvandarlıqda yem və döşənək kimi istifadə olunur. Onun yemlik sortları yaşıl yem, erkən silos və ot umu almaq üçün əkilir. Tritikale yem botaniki cinsdir.

Tritikale-amfidiploid buğda-çovdar hibriddir. 42 xromosomlu heksaploid Tritikale bərk çovdarda çarpazlaşdırılması nəticəsində alınır. Onlar böyük praktiki əhəmiyyətə malikdirlər,belə ki, oktaploid tritikaleyə nisbətən tərkibində zülalın miqdarı daha çoxdur.

Tritikalenin növləri. Mövcud olan tritikale formaları 3 genetik qrupa bölünür:

1.Oktaploid ( 56 xromosomlu)

2.Heksaploid ( 42 xromosomlu)

3.Tetraploid ( 28 xromosomlu)

İrsi xüsusiyyətinə görə tritikale nə buğda nə də çovdardır.

1.Tritikale aestivumforma – yumşaq buğda çovdar hibridləri – oktaploid

2.Tritikale durumforte – bərk buğda çovdar hibridləri – heksaploid tritikale hibridləri.

3.Tritikale tripsikas – üç növlü, yəni üç növ bitkinin yumşaq buğda, bərk buğda və çovdarın irsi əlamətləri cəmlənmiş heksaploid tritikale hibridləri.

İstifadə olunma xarakterindən və bioloji xüsusiyyətlərindən asılı olaraq dənlik – yemlik qruplara bölünür. Tritikale diskimilər fəsiləsinin birinci qrup dənli taxıl bitkilərinə aiddir. Kök

DOI:10.30546/gdu.2023.43-46

sistemləri saçaqlıdır. Rüşeym və bügüm kökləri vardır. Heksaploid tritikale sortları cücərərkən 4-6 ədəd rüşeym kökcüyü əmələ gətirir. Gövdəsi içərisi boş 4-6 bügümarası olan küləşdən ibarətdir. Yarpağı iri, enli, mum təbəqəsi ilə ötülüdür. Vegetativ orqanlarının xarakterinə görə tritikale heterizis xüsusiyyətinə malikdir. Çünki valideyn formalarına nisbətən daha güclü vegetativ orqanlar əmələ gətirirlər. Tritikalenin meyvəsi dəndir. Dəni çovdar dəni kimi uzunsovdur. Sünbülün quruluşuna görə buğdadan uzun çovdardan qısadır. Sünbül buğdada olduğu kimi çoxçiçəkli sünbülçüyə, çovdarda olduğu kimi çox sünbülçülük xüsusiyyətinə malikdir. Sünbülü 2-6 çiçəklidir. Öz-özünə tozlanandır. Şərait olarsa çarpaz da tozlana bilir. Meyvəsi dəndir. Dəni uzunsovdur. Natura kütləsi buğdadan azdır. Bu endospermin tam dolması və dənin səthinin qırışlı olması ilə izah edilir. Toxumun cücərməsi üçün optimal tempetatur 20*C, minimal temperatur 5*C və maksimal temperatur isə35*C-dir. Cücərtilər səpindən 5-7 gün sonra görünür. Payız, qış dövründə 20*C şaxta böhran hesab olunur. Əsasən payızda, qismən yazda kollanır. Ümumi və məhsuldar kollanma optimal səpin müddətində müvafiq olaraq 4-6 və 2.5-3.5 təşkil edir. Payızlıq buğdadan 3-5 gün gec yetişir. Vegetasiya müddəti 250-235 gün davam edir.

Payızlıq buğdaya nisbətən tritekalinin quraqlığı davamlılığı yüksəkdir.

***Qismət tritikale sortu***

Sort Azərbaycan Dövlət Aqrar Universitetinin bitkiçilik kafedrasında naməlum tritikale sortu ilə qılçıqsız buğda sortunun çarpazlaşdırılmasından alınmışdır. Sortun hündürlüyü ortaboyludur və qısa yatmaya dənin tökülməsinə davamlı və tez yetişəndir. Yarpaqları və sünbülləri iridir,güclü kollanandır. Sünbülü ağ dəni qırmızıdır. Sünbülü uzun, sıx, qılçıqlıdır. Qılçıqları orta uzunluqda, kobud çıxımlıdır. Dənin keyfiyyəti 1000 dənin kütləsi 45-50 q şüşəvari 48.0% dəndə zülalın miqdarı 12.5-13.5%. 100 q undan çörəyin həcmi 500sm ümumi çörəkbişirmə qiyməti 2.7 baldır.

Xəstəliklərə ekstremal amillərə davamlılığı: təbii və həmçinin süni sirayətlənmə formalarında sarı və qonur pas, unlu,seh və sürmə xəstəliklərinə qarşı tam davamlıdır. Sortun qısa davamlılığı yüksək quraqlıqda davamlılığı orta yerə yatmayandır. Dənin sünbülündən cücərməsi müşahidə edilməyib.

Səpin müddəti – Optimal səpin müddəti oktyabrın axırı noyabrın ortalarınadəkdir, lakin gecikmiş əkinlərdə yaz əkinlə də istifadə etmək olar.

Səpin norması – Hektara 4.5-5.0 milyon cücərə bilən toxum səpilməsi nəzərdə tutulur. Gecikmiş səpinlərdə bu normanı 10% artırmaq lazımdır.

Qismət -1 tritikale sortunun məhsuldarlığına təsir edən amillərdən biri də onun dənli-taxıl bitkilərində olduğu kimi nisbətən davamlı olmasına baxmayaraq bəzi xəstəlik və zərəvericilərə yoluxmasıdır. Bu xəstəliklərə misal olaraq gövdə və ya zolaqlı pas, sarı pas, qonur pas cırtdan pas, unlu seh, tünd qonur ləkəli, helmintosporioz sentorioz, kök çürümə xəstəliyi, toz sürmə xəstəliyi və s.

Bunlardan başqa Qismət-1 tritikale sortu bakterioz xəstəliklərinə də yoluxa bilər. Bunlardan QARA LƏKƏ bakteriozu, BAZAL bakteriozu daxildir.

Bu xəstəliklər Qismət-1 tritikale sortunun məhsuldarlığının keyfiyyətinə mənfi təsir göstərir, məhsulun keyfiyyətini aşağı salır. Ona görə vaxtında müşahidələr aparıb onlara qarşı mübarizə tədbirləri aparılmalıdır. Eyni zamanda Qismət-1 tritikale sortu əkilib becərilən zaman sahənin bitki qalıqlarından təmizlənməsi və toxumların dezinfeksiyası vacibdir. Aqrotexniki tədbirlərə də diqqətlə izlənib əməl olunmalıdır. Sahənin şumlanması əkilib-becərilməsi, gübrələrin amofos azot, kalium vaxtında verilməlidir. Buda məhsuldarlığa müsbət təsir edən amillərdəndir.

DOI:10.30546/gdu.2023.43-46

Sağlam əkin materialı səpilməlidir. Ən əsas şərtlərdən biridə budur. Məhsul toplandıqdan sonra sahələr da qalmış bitki qalıqlarını yığıb məhv etməli və orada dərin şum aparılmalıdır.

Toxumların saxlanma qaydasıda əsas şərtlərdən biridir. Bu göstərilənləri nəzərə almaqla aqrotexniki, bioloji, fiziki mübarizə, mexaniki mübarizə və kimyəvi mübarizə üsullarından da istifadə etməklə Qismət-1 tritikale sortunun məhsuldarlığını yüksəltmək mümkündür.

Tritikalenin torpağa tələbatı da çovdara nisbətən yüksədir. Qrunt suları dərində yerləşən qumsal torpaqlarda quraqlıq ziyan vura bilər.

Tritikale torpağa aztələbkardır.

Tritikale digər payızlıq taxıllara nisbətən əsas qida elementlərinə (NPK) daha çox tələbkardır.

Xəstəlik və ekstremal amillərə davamlılığı pas, unlu şeh, sürmə və digər xəstəliklərə davamlıdır. Quraqlığa və şaxtaya davamlıdır. Şoran və şorakət torpaqlarda digər dənli bitkilərinə nisbətən çox məhsul verir.

Tritikale əkinlərində zərərvericilərə qarşı mübarizə də aparılmalıdır. Bu məqsədlə hektara 40kq 12%-li heksaxloran və ya 30kq hesabı ilə 2.5%-li votafoks və ya 25kq hesabı ilə metofosla tozlama aparılır. Bu tətbiq taxıl böcəklərini zərərli bağacığı məhv etməklə məhsulun kəmiyyət və keyfiyyətini qoruyub saxlamağa imkan verir. Tritikale əkinlərində xəstəliklərə qarşı da mübarizə aparılır.

Məhsulun yığılması – Tritikale bitkisinin dən məhsulunun yığımı vaxtında və itkisiz yığılmalıdır. Yerüstü kütlə torpaq səthindən 10-12 sm hündürlüyündə biçən maşınlar biçilib tirəyə vurulur və 4-5 gündən sonra döyülüb dən məhsulu küləşdən ayrılır. Yığım zamanı itkini minimuma endirmək üçün kombaynda və daşıma vasitələrində lazımi nizamlama işləri görülməlidir.

Yığılmış dən məhsulu xırmanda qurudulub təmizlənir və saxlamaq üçün kisələrə doldurulmuş vəya açıq tığ şəklində quru dezinfeksiya edilmiş anbarlara yığılmalıdır. Bu tədbirlər Qismət-1 tritikale sortunun məhsulunun keyfiyyətinə təsir edən amilləri aradan qaldırmağa köməklik göstərir.

Tritikale yerli dənli taxıl bitkisidir. Böyük məhsuldarlıq potensialı ilə fərqlənir, tərkibində yüksək miqdarda zülal olması onun ərzaq və yemlik dəyərini müəyyən edir. Buğda və çovda hibrididir.

Tritikale də buğdaya və çovdara xas olan müsbət irsi əlamətləri birləşdirir. Tritikalenin mövcud olan növləri formaları 3 genetik qrupa bölünür:

1.Oktoploid – 56 xromosom
2.Heksoploid – 42 xromosom
3. Tetraploid – 28 xromosom

Tritikalenin sortu:

1.Samur tritikale sortu
2.Şirvan tritikale sortu
3.Ləyaqətli 2/17 tritikale sortu
4. Qismət – 1 tritikale sortu

Sort Azərbaycan Dövlət Aqrar Universitetinin Bitkiçilik kafedrasında alınmışdır. Sortun hündürlüyü ortyaboylu, qısa yatmaya və dənin tökülməsinə davamlı və tezyetişəndir. Qismət - 1 tritikale sortu yüksək məhsuldardır. Xəstəliklərə,ekstremal amillərə davamlıdır. Qonur pas, sarı pas, unlu şeh və sürmə xəstəliklərinə tam davamlıdır.

Bu xəstəliklər də Qismət-1 tritikale sortunun məhsuldarlığına mənfi təsir göstərir, məhsulun keyfiyyətini aşağı salır.

DOI:10.30546/gdu.2023.43-46

***Ədəbiyyat***

1.Azərbaycan Elmi Tədqiqat Əkinçilik İnstitutunda yaradılmış dənli taxıl bitkiləri sortlarının xarakteristikası. Bakı
2.Əliyev S.C , ismayılov M.M. Tritikale (metodiki tövsiyyə) AzETETİİ.Bakı 1992
3.İsmayilova M.M. Tritikale və onun becərilməsi texnologiyası. Gəncə 1998
4.Тритикале- первая зерновая култура созданная человеком. Перс. Англ. М.Колос 1978,284с.
5. Тритикале ценная зернофуражная култура. Фрунзе, 1985
6.Firuddin Qurbanov – Sort və toxum nəzarəti. Bakı.2017,s. 142-147

## ВЛИЯНИЕ НЕКОТОРЫХ ФАКТОРОВ НА УРОЖАЙНОСТЬ СОРТА «QISMƏT-1» ТРИТИКАЛЕ

***Курбанов Фируддин Гаджи оглы, Мамедова Солмаз Исфандияр гызы, Ахмедов А лтай Афтандил оглы***

***Резюме***

Тритикале новый сорт зерновых культур, отличается высокими урожайнымы качествами. Состав содержит много аминокислот, белок. Сорт устойчив болезням, вирусным болезням,морозоустойчив.

Зерно тритикале содержит 15-18 %. Из зерно тритикале используется хлебопекарня, кондитерские изделия,пивоварение в животноводстве, кормовое производство.

Урожайность на тритикале «Qismət-1» влияет много факторов.

## FAKTORS AFFECHUG THE EFFIACACY OF THE “QISMƏT-1” TRITICALE CORDEX

***Qurbanov Firuddin Naci, Mammadova Solmaz Isfandiyar, Ahmadov Altay Aftandil***

***Resume***

Triticale is a new very productive. There were high levels of protein. Wheat and herd are hybrids it also optimizes the positive properties of wheat and rye.

The greatness, the quality and the greatnessof the wheat. Fakes tram frost resistance to frost, strong use, chatelaines of sued 15 – 18 % protein.

Wheat protein is 1.0 – 1.5% higher tram. Wheat protein and 3 – 4% more, but the quality is low.

Das not catch the triticale sliding chest.

***Rəyçi: prof Firuddin Qurbanov***
***“Taxıl və paxlalı bitkilər” sahəvi Laboratoriyasının 13 aprel 2023-cü il tarixli iclasın 9 saylı protokolu***
***Daxil olma tarixi 03 iuyl 2023-cü il***